# AZƏRTAC-ın Uşaq Bilik Portalı və Özbəkistanın "Tonq Yulduzi" qəzetinin birgə keçirdiyi rəsm müsabiqəsinin qalibləri müəyyənləşib

**1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə AZƏRTAC-ın Uşaq Bilik Portalı ilə Özbəkistanın "Tonq Yulduzi" uşaq və gənclər qəzetinin təşkilatçılığı ilə keçirilən "Vətənin tərənnümü" mövzusunda rəsm yarışması yekunlaşıb.**



Şahriza Sadriddinova



Nigar Ömərova

Martın 18-dən mayın 22-dək keçirilən müsabiqənin məqsədi şagirdlərdə vətənpərvərlik hissini gücləndirmək, iki ölkənin uşaqları arasında dostluq və qardaşlıq əlaqələrini möhkəmləndirmək, onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək, milli adət-ənənələri geniş təbliğ etmək, həmçinin istedadlı uşaqları üzə çıxarmaqdan ibarət olub.

8-12 yaşlı uşaqlar arasında keçirilən müsabiqəyə hər iki ölkədən ümumilikdə 100-dən çox rəsm işi təqdim olunub. Müraciət mayın 22-də yekunlaşıb və seçim mərhələsi başlayıb. Təqdim edilən rəsm işləri münsiflər heyəti tərəfindən müvafiq meyarlar üzrə qiymətləndirilərək qaliblər müəyyən olunub.

Azərbaycan üzrə I yerin qalibi Nigar Ömərova, II yerin qalibi Afşin Sadıxzadə, III yerin qalibi isə Nuray Məmmədli olub. Özbəkistan üzrə isə I yerə Şahriza Sadriddinova, II yerə Mahiçohra Rustamova, III yerə isə Xurşida Kamolova seçilib.

Azərbaycan.- 2025.- 1 iyun (№113).- S.12.